# İCTİMAİ ŞÜURUN EKOLOJİLƏŞDİRİLMƏSİ

**Südabə Hüseynova**

*AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı*
*sudabeaskerova@gmail.com*

İctimai şüur fərdi şüurdan fərqli olaraq ayrı-ayrı şəxslər, sosial qruplar və xalqlar tərəfindən deyil, bütün bəşəriyyət tərəfindən min illər ərzində yaradılır və yalnız bəşəriyyətə məxsus olur. İctimai şüur bilavasitə və ya dolayı yolla ayrı-ayrı adamlar tərəfindən yaradılsa da, həmin adamların ixtiyarından çıxaraq bütün bəşəriyyətin mənəvi sərvətinə çevrilir. Məsələn, elmi kəşflər, bədii ideyalar, müxtəlif nəzəriyyələr ayrı-ayrı şəxslərin zəkasının məhsulu olsalar da, onlar bütün bəşəriyyətə məxsusdur. İctimai şüur dərin məzmuna malik olub, keyfiyyətcə xüsusi bir mənəvi sistemdir. Bu sistem nəticə etibarilə ictimai varlıqdan asılı olub onun inikası olsa da, özü nisbi müstəqilliyə malikdir. O, ictimai inkişafa təsir edən güclü amildir. Tarixi inkişafda ictimai şüurun da böyük rolu vardır.

İctimai şüur cəmiyyətin və bəşəriyyətin mənəvi mədəniyyətini təşkil edir. Bu təkcə ictimai həyat haqqında ideyalar deyil, cəmiyyətin bütövlükdə dünya haqqında və özü haqqında ideyalardır. İctimai şüur

mürəkkəb struktura, müxtəlif səviyyələrə malikdir. İctimai şüurun yeni formalaşmaqda olan ekoloji şüur forması cəmiyyətlə ətraf mühitin qarşılıqlı əlaqəsini əks etdirir. Maraqlı cəhət odur ki, ekoloji şüur cəmiyyətlə ətraf mühitin münasibətlərini inikas etdirməklə yanaşı, mürəkkəb strukturlu ictimai şüurun bütün səviyyələrində çıxış edir.

İnsanın təbiət aləmi ilə qarşılıqlı əlaqəsini bəzi fenomenlər aşkarlayır və onları əks etdirir. Belə fenomenlərə birinci növbədə ekoloji şüur aid edilir. Ekoloji şüur mahiyyətcə təbiətin insanın həyat tərzinin – məişətinin bir hissəsi kimi əks olunması ilə əlaqədar olan ictimai və fərdi şüru əks etdirir. Təbiətlə insanın qarşılıqlı münasibəti fərdin cəmiyyətdə şəxsiyyət kimi formalaşmasına, onun əhval-ruhiyyəsinə, dünyagörüşünə, biliklər sisteminə, tərbiyəsinə və ən nəhayət, psixoloji vəziyyətinə birbaşa təsir edir.

Cəmiyyətin mövcudluğuna, inkişafa, demoqrafik proseslərə və s. ətraf mühitin təsirinin olduğu qeyd edilir. Bununla bərabər, insanların həyat fəaliyyətinin formalaşmasına və ixtisaslaşmasına təsir göstərir. Hətta ekologiya şəxsiyyətin cəmiyyətdə formalaşmasına, əhval-ruhiyyənin yaranmasına, dünyagörüşünə, dünyabaxışına, zövqün səviyyəsinə, insanın tərbiyəsinə, psixoloji durumuna, bir sözlə, insanın həyat fəaliyyətinə birbaşa təsir edir. İnsanların bir-birinə olan qayğısının meyarı kimi məhz təbiət çıxış edir. Elmdə olan bütün kəşflərin hamısının hərəkətverici qüvvəsi və mənbəyi simasında təbiət çıxış edir.

Nəticədə insan nə qədər təbiəti dərk edirsə, bir o qədər cəmiyyətin inkişafına təkan vermiş olur. İnsanların təbiəti istismar edərkən təbiətdəki proseslərə nə qədər müdaxilə etmələri və dəyişdirərkən bu qanunauyğunluqları müəyyən təsirə məruz qoymaları cəmiyyətin inkişafına öz mənfi və ya müsbət töhfəsini vermiş olur.

Cəmiyyət və təbiətin qarşılıqlı təsirinin harmonikləşdirilməsi ictimai şüurun ekolojiləşdirilməsi olmadan qeyri-mümkündür. İctimai şüurun ekolojiləşməsi özündə müxtəlif aspektləri birləşdirir. İctimai şüurun ekolojiləşdirilməsi, hər şeydən əvvəl, təbii sərvətlərə məhdud utilitar yanaşmadan əl çəkmək deməkdir, təbiətə istismar obyekti kimi baxılmasından imtina edilməsi deməkdir. İctimai şüurun ekolojiləşdirilməsi ictimai tərəqqiyə kəmiyyət artımı kimi deyil, texniki-iqtisadi göstəricilərə istiqamətlənən bir hal kimi deyil, ətraf mühitin sistemli tamlığının saxlanılması zərurətini nəzərə alan keyfiyyət artımı kimi baxmağa üstünlük verir. İnsan fəaliyyətinin təbiəti dəyişdirmək sahəsindəki kriteriyalarının dəyişməsində insanın dünyadakı yeri və rolunun dərindən dərk edilməsində ictimai şüurun ekolojiləşdirilməsinin mühüm rolu vardır.

Təbiətin sağlamlaşdırılması ilə yanaşı, eyni zamanda insanın özünün qorunması üçün elmin, texnikanın, iqtisadiyyatın ekolojiləşdirilməsi də vacibdir. Ekolojiləşmə hər şeydən əvvəl "təbiət–cəmiyyət" sisteminin tarazlığının qorunmasına xidmət edir. İnsanların məqsədəuyğun fəaliyyətinin yaşamaq üçün təbiətə təsir etməsilə əlaqədar olduğu heç kimdə şübhə doğurmur. Lakin təbiət də insana passiv münasibətdə deyildir. Təbiət insanın fəaliyyətindən asılı olaraq ona "müsbət" və yaxud "mənfi" reaksiya verir. Doğrudan da təbii faktorlar insanın inkişafına hərtərəfli təsir göstərərək nəinki onun bədən quruluşunu müəyyən edir, həmçinin intellektual inkişafına təsir göstərir.

Ekoloji şüurun real əks olunmasında ekoloji biliklərin, istiqamətlərin, elmi yeniliklərin də xüsusi rolu vardır. Əlbəttə, ekoloji şüur fenomeninin mahiyyətində onun əsas nüvəsi təbiətin özü inkişaf edən bir sistem kimi təsəvvür olunması durur. Müasir psixologiyada şüur məfhumu altında həqiqətin, obyektiv reallığın, konstruktiv yaradıcılıq dəyişikliklərinin mahiyyətini olduğu kimi özündə təcəssüm etdirən ali, inteqrasiya olunan psixika forması başa düşülür. İnteqrasiya prosesində qavrayış, yaddaş, düşünmək, təsəvvür etmək anlayışları iştirak edir və nəticədə insan fəaliyyəti və əxlaqında öz əksini tapan təbiət aləmi haqqında müvafiq biliklər sistemi formalaşır. Bu proseslərin hamısı insanın çoxcəhətli emosional münasibətləri ilə müşayiət olunur.

Ekoloji fəaliyyət hər şeydən əvvəl, ətraf mühitə zərərli təsirin göstərilməsinə qarşı yönəlməlidir. Ətraf mühitə zərərli təsir dedikdə ekoloji sistemin ayrı-ayrı komponentlərinin kəmiyyət və keyfiyyətcə dəyişməsinə, ekoloji tarazlığın pozulmasına səbəb olan kimyəvi və bioloji, zərərli fiziki-texniki, dağ-mədən işlərində texnologiyanın pozulması, təbii resurslardan israfçılıqla istifadə edilməsi ilə müşayiət olunan fəaliyyət nəzərdə tutulur. Ekoloji fəaliyyət isə həmin fəaliyyətin əksini nəzərdə tutur.

Dünyanın bütün mədəni ölkələrində ekoloji vəziyyətin yaxşılaşdırılması sahəsində tədbirlərin həyata keçirildiyi, "yaşıllar" hərəkatının genişləndiyi, Almaniya, Kanada, Yaponiya və s. ölkələrdə "yaşıllar" partiyalarının fəaliyyət göstərdiyi bir vaxtda biz Qərbi təbiəti amansızcasına istismar etdiyinə görə ittiham etmiş, sosializm şəraitində təbiətə şüurlu münasibətdən həvəslə danışmış, "təbiətə şüurlu və planlı münasibətimizlə" öyünməklə məşğul olmuşuq. Yalnız bir neçə il sonra respublikamızda da "yaşıllar" hərəkatı yaranmış və ekoloji tərbiyə ön plana çəkilmişdir.

Ekoloji tərbiyə ümumbəşəri tərbiyənin, cəmiyyətin və şəxsiyyətin ekoloji mədəniyyətinin tərkib hissəsidir. Ekoloji mədəniyyətin inkişafı ilə insan özündən daha çox gələcək nəsillərə ekoloji həyat şəraiti yaradır. İnsanda yüksək dərəcədə inkişaf etmiş ekoloji şüur təbiəti yenidən yaratmaqla yeni tipli ekoloji mədəniyyəti formalaşdırır.

Müasir şəraitdə ekoloji mədəniyyət ümumbəşəri dəyərləri inteqrasiya edərək, bilavasitə tarixi sivilizasiyanın gedişinə təsir göstərir. Ekoloji mədəniyyət əhalinin ekoloji təhsilini, şüurunu, tərbiyəsini özündə birləşdirir. Ekoloji mədəniyyət həmçinin cəmiyyətin toplamış olduğu ekoloji əxlaqı, etikanı, davranış qaydalarını özündə əks etdirir. Bir sözlə, ekoloji mədəniyyət cəmiyyət tərəfindən işlənilmiş qanunların, ənənələrin, təsərrüfat, iqtisadi fəaliyyət və s. sahələrdə təbiətə özünün qarşılıqlı münasibətlərinin uyğunlaşdırılması deməkdir. Bu mənada təbiət insanın sağlamlığını, əhval-ruhiyyəsini, əmək qabiliyyətini müəyyən edir. O, gözəllik və sevinc mənbəyi, daim axtarışların və həqiqətlərin tapılması obyekti, insanın maddi, mənəvi tələblərinin əvəzedilməz vasitəsidir. Yaddan çıxarmaq olmaz ki, təbiət bizim üçün birincisi, həyat mənbəyi, ikincisi, sağlamlıq, üçüncüsü, gözəllik və ilham mənbəyidir.

Hazırda beynəlxalq aləmdə hamı belə bir fikirlə razılaşır ki, insanlarda mədəniyyətin, sivilizasiyanın yeni növü – ekoloji mədəniyyət formalaşmalıdır. Əks təqdirdə insanların təbiətə, onun sərvətlərinə mənfi münasibəti dəyişilməyəcək, əksinə, daha da dərinləşəcəkdir. Bu gün insanlarda ekoloji mədəniyyətin, sivilizasiyanın, təfəkkürün, şüurun, tərbiyənin və təhsilin formalaşması artıq günün, dövrün tələbinə çevrilmişdir. Ekoloji mədəniyyət təkcə təbiətə müəyyən baxışlar, onun sisteminin işlənib hazırlanması demək deyildir. O, həm də konkret insan fəaliyyəti ilə əlaqədardır. Cəmiyyətdə ekoloji mədəniyyət səviyyəsinin yüksəlməsi gələcək nəslin ekoloji tərbiyəsindən və ekoloji biliklərə necə yiyələnməsindən asılıdır. Ekoloji təhsilin ardıcıl və sistemli olması üçün bu prosesə şəxsiyyətin formalaşmasının ilk anlarından, uşaqlıqdan başlamaq lazımdır ki, onun da təməli məhz ailədə, məktəbəqədər tərbiyə ocaqlarında, ibtidai siniflərdə qoyulmalı, orta, orta ixtisas və ali məktəblərdə isə tamamilə formalaşmalıdır.

Beləliklə, insanın təbiətlə birgə yaşayış mühitinin optimal vəziyyətə çatmasına xidmət edən məlumatlların çatdırılması, eləcə də insan birliklərində baş verən bioloji, sosial və psixoloji məsələlərin araşdırılması ekoloji şüurun formalaşmasının nəticəsidir. Məhz bu baxımdan insanın təbiətlə qarşılıqlı münasibətinin öyrənilməsi də bu məqsədə xidmət etməlidir.